# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№305/5** **14 noyabr 2018-ci il**

**“Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait” barədə**

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017–2019-cu illər üçün Milli Fəaliyyət Planı”na və Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.8.3-cü bəndinə uyğun olaraq Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun rəhbərliyi ilə sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və Auditin hüquqi təminatı və dövlət orqanları ilə iş idarəsi tərəfindən işlənib hazırlanmış “Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait”in layihəsi bəyənilsin (əlavə olunur).

2. Auditin hüquqi təminatı və dövlət orqanları ilə iş idarəsinə (M.Abbasov) tapşırılsın ki:

- iki həftə müddətində “Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait”in müvafiq dövlət qurumlarına, o cümlədən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasına və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, auditor təşkilatları və sərbəst auditorlara göndərilməsini təmin etsin;
- “Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait”ə dair sərbəst auditorlar və auditor təşkilatlarının nümayəndələrinin iştirakı ilə noyabr ayının üçüncü ongünlüyündə seminar keçirilməsini təmin etsin.

3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait”in “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək 10-cu cildinə daxil edilməsini təmin etsin.

4. Bu qərarın və metodik vəsaitin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**